Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 27 ” noyabr tarixli
346 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Minatəmizləyənlərə standart əməliyyat prosedurlarına dair təlimlərin keçirilməsi**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 5.10-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və minatəmizləyənlərə standart əməliyyat prosedurlarına dair təlimlərin (bundan sonra – təlimlər) keçirilməsi qaydasını müəyyən edir.

1.2. Təlimlər Azərbaycan Respublikasının ərazisində minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət orqanlarının (qurumlarının), hüquqi və fiziki şəxslərin (bundan sonra – Sifarişçilər) müraciətləri əsasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (bundan sonra – Agentlik) tərəfindən keçirilir.

1.3. Təlimlərin məqsədi minatəmizləyənlərə vəzifə və öhdəliklərini qənaətbəxş şəkildə yerinə yetirmək üçün bilik, bacarıq və vərdişləri yüksək səviyyədə aşılamaqdır.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Qaydanın tətbiq dairəsi

Bu Qayda Sifarişçilərin minatəmizləyənlərini, habelə Sifarişçilər tərəfindən minatəmizləmə fəaliyyətinə cəlb edilməsi planlaşdırılan şəxsləri əhatə edir.

## 3. Təlimlərin forma və üsulları

3.1. Minatəmizləyənlərə təlimlərin keçirilməsi bu sahədə insan kapitalının inkişafı üçün metodoloji və təcrübi biliklərin tədrisini nəzərdə tutur.

3.2. Təlimlər əyani formada nəzəri və təcrübi üsullardan istifadə edilməklə keçirilir.

## 4. Təlim ehtiyaclarının müəyyən edilməsi

4.1. Sifarişçilər funksional fəaliyyətini yerinə yetirmək məqsədilə işçilərinin bilik, bacarıq və vərdişlərinin artırılması üçün onların təlim ehtiyaclarını müəyyən edirlər.

4.2. Sifarişçilər növbəti il üçün təlim ehtiyaclarını hər il dekabrın 15-dək Agentliyə təqdim etməlidirlər.

4.3. Sifarişçilər icra prosesində təcili təlim ehtiyacları yarandığı halda əlavə müraciət edə bilərlər.

4.4. Təlim ehtiyaclarının müəyyən edilməsi üçün əsas aşağıdakılardır:

4.4.1. xüsusi əməliyyat növü və ya yeni metodların tətbiqi zərurəti;

4.4.2. minatəmizləmə əməliyyatlarının icrası zamanı standart əməliyyat prosedurlarına zidd fəaliyyətin aşkar edilməsi;

4.4.3. minatəmizləmə əməliyyatlarının icrası zamanı partlayıcı sursat hadisələrinin və qəzaların baş verməsi;

4.4.4. mövcud işçilərin ixtisasının artırılması zərurəti və ya minatəmizləmə fəaliyyətinə yeni işçilərin cəlb edilməsi;

4.4.5. işçilərin minatəmizləmə əməliyyatlarından 3 (üç) aydan çox müddətdə kənarda qalması.

4.5. İşçilər 3 (üç) aydan 6 (altı) ayadək müddətdə minatəmizləmə əməliyyatlarından kənarda qaldıqda bu Qaydanın 6.2.11-ci yarımbəndi ilə müəyyən edilmiş təlimlərə cəlb edilməlidirlər.

4.6. İşçilər minatəmizləmə əməliyyatlarından 6 (altı) aydan çox müddətdə kənarda qaldıqda bu Qaydanın 6.2.1 - 6.2.10-cu yarımbəndləri ilə müəyyən edilmiş müvafiq istiqamət üzrə təlimlərə cəlb edilməlidirlər.

## 5. Təlimlərin planlaşdırılması və təşkili

5.1. Agentlik tərəfindən təlim ehtiyaclarına uyğun olaraq hər il dekabrın 25-dək növbəti il üçün təlim planı hazırlanmalı və təsdiq edilməlidir.

5.2. Təlimin növü və cəlb olunacaq şəxslər barədə məlumatlar təlimin başlanmasından ən azı 10 (on) iş günü əvvəl Sifarişçilər tərəfindən rəsmi qaydada Agentliyə təqdim edilməlidir.

5.3. Təlimlərin keyfiyyətinin qorunub saxlanılması və səmərəli tədris olunması üçün təlimə cəlb olunacaq şəxslərin yuxarı say həddi hər qrupda 30 (otuz) nəfərdən çox olmamalıdır.

5.4. Agentlik tərəfindən müvafiq təlimin keçirilməsi üçün təlim prosesinin mərhələlərini əhatə edən tədris planı hazırlanmalıdır.

5.5. Tədris planında aşağıdakılar nəzərdə tutulmalıdır:

5.5.1. dərsin adı və müddəti;

5.5.2. dərsin mövzuları;

5.5.3. tədris metodikası, forması və üsulu.

5.6. Təlim prosesi zamanı zəruri olan təlim materialları və dəftərxana ləvazimatları Agentlik tərəfindən təmin olunur.

## 6. Təlim mərhələləri

6.1. Təlim mərhələləri aşağıdakılardır:

6.1.1. əsas ixtisas mərhələsi;

6.1.2. yüksək ixtisas mərhələsi;

6.1.3. təkmilləşdirmə mərhələsi.

6.2. Əsas ixtisas mərhələsi aşağıdakı istiqamətlərdən ibarətdir:
6.2.1. humanitar minatəmizləmə və döyüş sahəsinin təmizlənməsi təlimi;
6.2.2. qeyri-texniki və texniki tədqiqat təlimi;
6.2.3. tikililərin partlayıcı sursatlardan təmizlənməsi təlimi;
6.2.4. mexaniki vasitə üzrə operator təlimi;
6.2.5. mexaniki vasitə üzrə operatorun, minaaxtaran heyvan bələdçisinin və xüsusi texnologiyaları idarə edən əməkdaşların minatəmizləmə əməliyyatlarına inteqrasiyası təlimi;
6.2.6. minaaxtaran heyvan bələdçiləri təlimi;
6.2.7. əldədüzəlmə partlayıcı qurğularla tanışlıq təlimi;
6.2.8. ilkin tibbi yardım və tibb işçilərinin inteqrasiyası təlimi;
6.2.9. quyuların və kəhrizlərin təmizlənməsi təlimi;
6.2.10. sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi təlimi;
6.2.11. təkrarlama təlimləri.
6.3. Yüksək ixtisas mərhələsi aşağıdakı istiqamətlərdən ibarətdir:
6.3.1. əməliyyat rəhbəri təlimi;
6.3.2. sahə rəhbəri təlimi;
6.3.3. bölmə/qrup rəhbəri təlimi;
6.3.4. texniki tədqiqat rəhbəri təlimi;
6.3.5. partlayıcı sursatların zərərsizləşdirilməsi və məhv edilməsi üzrə birinci və ikinci dərəcəli mütəxəssis təlimi;
6.3.6. partlayıcı sursatların zərərsizləşdirilməsi və məhv edilməsi üzrə üçüncü və daha yüksək dərəcəli mütəxəssis təlimi;
6.3.7. informasiyanın idarə olunması və coğrafi informasiya sistemi təlimi;
6.3.8. minatəmizləmə fəaliyyətində orta və ya yuxarı səviyyəli idarəetmə təlimi.
6.4. Təkmilləşdirmə mərhələsi aşağıdakı istiqamətlərdən ibarətdir:
6.4.1. minatəmizləmə təlimlərinin əsas ixtisas mərhələsi üzrə təlimatçı təlimi;
6.4.2. partlayıcı sursatların zərərsizləşdirilməsinin və məhv edilməsinin bütün mərhələləri üzrə təlimatçı təlimi;
6.4.3. keyfiyyətə təminat və nəzarət təlimi.
6.5. Növbəti ixtisas mərhələsi üçün keçirilən təlimə yalnız əvvəlki mərhələdə müvafiq istiqamət üzrə təlim keçmiş işçilər buraxılırlar.
6.6. Bu Qaydanın 6.3-cü və 6.4-cü bəndləri ilə müəyyən olunmuş təlimlərə cəlb olunması nəzərdə tutulan işçilərin müvafiq sahə üzrə ən azı 3 (üç) il iş təcrübəsi olmalıdır.

## 7. Dərslərin tədris olunması

7.1. Minatəmizləyənlərin əməliyyat sahələrində təhlükəsiz fəaliyyət göstərmələri üçün təlimlərdə tədris iki mərhələdə keçirilir:
7.1.1. birinci mərhələ hesab olunan nəzəri hissə;
7.1.2. ikinci mərhələ hesab olunan təcrübi hissə.
7.2. Nəzəri hissədə təlimatçılar tərəfindən:
7.2.1. təlimin növünə uyğun olaraq dərsin məzmunu hazırlanır;
7.2.2. təlimin növünə uyğun olaraq nəzəri biliklər tədris edilir;

7.2.3. təlim zamanı istifadə olunan partlayıcı sursat maketlərinin tərkibində partlayıcı maddə olmadığı barədə təlimə cəlb olunmuş şəxslər məlumatlandırılırlar;

7.2.4. şəxslərə partlayıcı sursat maketləri ilə həqiqi sursatlara uyğun davranış sərgiləmələri öyrədilir;

7.2.5. dərslərin təşkili üçün zəruri olan maddi-texniki təminat və əyani vəsaitlərin tamlığına nəzarət olunur.

7.3. Təcrübi hissədə təlimatçılar tərəfindən:

7.3.1. tədris olunan biliklərin xüsusi ayrılmış təhlükəsiz təcrübə sahəsində tətbiqi həyata keçirilir;

7.3.2. təcrübi dərslər izah, nümayiş, təqlid prinsipləri ilə keçirilir.

## 8. Təlim prosesinin qiymətləndirilməsi

8.1. Təlim prosesinin təşkilinin və tədrisin bu Qaydanın 5.4-cü bəndində nəzərdə tutulan tədris planına uyğunluğunun qiymətləndirilməsi üçün Agentlik tərəfindən monitorinqlər aparılır.

8.2. Monitorinqlər zamanı aşkar edilən uyğunsuzluqlar və nöqsanlar müvafiq hesabatda qeyd edilməklə, onların aradan qaldırılması üçün Agentlik tərəfindən zəruri tədbirlər həyata keçirilir.

## 9. Təlim zamanı təhlükəsizlik qaydalarına əməl olunması

9.1. Təlimatçılar və təlimlərə cəlb olunmuş şəxslər dərslərin tədris olunduğu inzibati binanın və təlim sahəsinin təxliyə planı ilə tanış olmalıdırlar.

9.2. Baş verə biləcək hadisələr zamanı təlimatçılara və təlimə cəlb olunmuş şəxslərə ilkin tibbi yardımın göstərilməsi təmin olunmalıdır.

9.3. Təlimlər zamanı yalnız Agentlik tərəfindən sertifikatlaşdırılmış təlim sursatlarından istifadə edilməlidir.

9.4. Təcrübi partlayış dərsləri istisna olmaqla, təlim sursatlarının tərkibində partlayıcı maddə və işəsalıcı sistem olmamalıdır.

9.5. Dərslərin tədrisi zamanı istifadə olunan partlayıcı sursatların təhlükəsiz vəziyyətdə olduğu barədə iştirakçılara yazılı məlumat verilməli və onların həmin məlumatla tanış olduğu imzaları ilə təsdiq edilməlidir.

9.6. Təlimatçılar və təlimlərə cəlb olunmuş şəxslər fəaliyyətlərinin həyata keçirilməsi zamanı yarana biləcək təhlükələrə qarşı sığorta edilməlidirlər.

## 10. Təlim nəticələrinin qiymətləndirilməsi

10.1. Təlimi bitirmiş şəxslərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi Agentliyin yaratdığı İmtahan Komissiyası tərəfindən iki mərhələdə aparılır. Qiymətləndirilmə zamanı verilən sualların və tapşırıqların sayı və məzmunu İmtahan Komissiyası tərəfindən müəyyən edilir.

10.2. Nəzəri biliklərin qiymətləndirilməsi mərhələsi test üsulu ilə həyata keçirilir, sualların ən azı 70 (yetmiş) faizinə düzgün cavab vermiş şəxslər praktiki bacarıqların və vərdişlərin qiymətləndirilməsi mərhələsinə buraxılırlar.

10.3. Praktiki bacarıq və vərdişlərin qiymətləndirilməsi mərhələsi sahə şəraitində nümayiş metodundan istifadə edilməklə həyata keçirilir. Bu mərhələdə verilən tapşırığı (tapşırıqları) müvafiq Standart Əməliyyat Prosedurlarının tələblərinə uyğun icra etmiş şəxslərə Agentlik tərəfindən "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 5.10-cu maddəsinə uyğun olaraq təlim keçmələri barədə sertifikat verilir.

10.4. Bu Qaydanın 10.3-cü bəndində nəzərdə tutulan sertifikatın forması Agentlik tərəfindən müəyyən edilir.